

**Hacıyev Fazil Şöhlət oğlu**
**i.e.d., dos.**

Azərbaycan Dövlət İqtisad Universiteti

Bakı şəhəri, AZ 1001, İstiqlaliyyət küçəsi, 6

fazil.haciyev@gmail.com

UOT 330.322:338.246: (479.24)

# MÜASİR ŞƏRAİTDƏ SƏNAYE SAHƏLƏRİNDƏ İNVESTİSİYA AXINININ SƏMƏRƏLİLİYİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**səh. 137-148**

## Xülasə

*Tədqiqatın məqsədi* – investisiya qoyuluşları şəraitində milli iqtisadiyyatın prioritet sahəsi olan sənayenin inkişaf istiqamətini müəyyən etmək.

*Tədqiqatın metodologiyası* – sistemli yanaşma, maliyyə təhlili.

*Tədqiqatın nəticələri* – iqtisadi islahatlar zəmnində sənayeyə yönələn xarici investisiya qoyuluşlarının səmərəliliyinin təhlili.

*Tədqiqatın məhdudiyyətləri* – müasir şəraitdə sənaye sahələrinə investisiya axınının səmərəliliyinin təhlili və qiymətləndirilməsi daha geniş informatik hesablama tələb edir.

*Tədqiqatın praktiki əhəmiyyəti* – Azərbaycanın regionlarında sanaye potensialının genişləndirilməsində elmi mənbə kimi istifadə imkanlığı.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* – müxtəlif mənbələrdən sənayeyə investisiya qoyuluşlarının səmərəliliyinin qiymətləndirilməsi metodologiyasının təkmilləşdirilməsi.

**Açar sözlər:** *Azərbaycan iqtisadiyyatı, iqtisadi islahatlar, investisiyalar, sənayedə investisiyanın səmərəliliyinin qiymətləndirilməsi .*



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

## 1. Giriş

Azərbaycanda uğurla həyata keçirilən geniş miqyaslı sosial-iqtisadi islahatlar nəticəsində son illər ölkəmizin həyatında olduqca mühüm dəyişikliklər baş vermiş, ölkə iqtisadiyyatı özünün dinamik inkişafı ilə yeni mərhələ olan sənayeləşməyə qədəm qoymuşdur. Təkcə son beş ildə ümumi daxili məhsul istehsalı 29,9%, o cümlədən sənaye məhsulu 2,7 dəfə artmışdır. Əgər 2008-ci il ərzində ölkə ərazisində 40,1 mlrd. manatlıq ÜDM istehsal olunmuşdursa, 2012-ci ildə onun həcmi təxminən 54,0 mlrd. manata çatmışdır. Göründüyü kimi, ölkə iqtisadiyyatının inkişaf etdirilməsi müəyyən dərəcədə də buraya investisiyaların cəlb edilməsi və onlardan səmərəli istifadə olunması günün vacib məsələlərindən biridir. Bu məsələ həm də elmi aktuallılıq fərqlənir və bizim tədqiqat predmetimizin də əsasında dayanır.

## 2. İnvestisiya qoyuluşlarının təhlili

Hazırda ölkə iqtisadiyyatına qoyulan investisiyaların məbləğinin ildən-ilə artması onu tələb edir ki, müxtəlif mənbələrdən olan investisiyalardan səmərəli istifadə etmək lazımdır. Belə ki, investisiya axınının ölkə iqtisadiyyatına cəlb edilməsi çox mühüm əhəmiyyət kəsb edir. Bu investisiyalar içərisində xarici investisiyaların 1991-ci ildən etibarən məbləği davamlı surətdə artmışdır. Belə ki, 1991-ci ildə 22 mln. ABŞ $, 1993-cü ildə 55 mln. ABŞ $, 1995-ci ildə 375,1 mln. ABŞ $, 1996-cı ildə 620,5 mln. ABŞ $, 1997-ci ildə 1223 mln. ABŞ $, 1998-ci ildə 1212 mln. ABŞ $, 1999-cu ildə 1091,1 mln. ABŞ $, 2000-ci ildə 927 mln. ABŞ $, 2001-ci ildə 1091,8 mln. ABŞ $, 2002-ci ildə 2234,9 mln. ABŞ $, 2003-cü ildə 3371,0 mln. ABŞ $, 2004-cü ildə 4575,5 mln. ABŞ $, 2005-ci ildə 4893,2 mln. ABŞ $, 2006-cı ildə 5052,8 mln. ABŞ $, 2007-ci ildə 7781,7 mln. ABŞ $, 2008-ci ildə 6847,4 mln. ABŞ $, 2010-cu ildə 3037 mln. ABŞ $, 2011-ci ildə 3321 mln. ABŞ $ və 2012-ci ildə 4162 mln. ABŞ $ investisiya təşkil etmişdir. [3, 4]

Xarici investisiyaların Azərbaycan iqtisadiyyatına yönəldilməsində beynəlxalq və regional iqtisadi təşkilatlarla yanaşı respublikada fəaliyyət göstərən xarici investisiyalı təşkilatlar, firmalar, onların nümayəndəlikləri və s. qurumlar da böyük rol oynayırlar. 2012-ci ilin əvvəlində bu mənbələrdən respublika iqtisadiyyatına qoyulan sərmayələrin məbləği 250 mln. dollardan çox olmuşdur. Bütövlükdə ölkə iqtisadiyyatına qoyulan birbaşa investisiyaların 123,6%-i neft-qaz sektoruna, qalan hissəsi isə digər sektorlara yönəldilmişdir.

Birbaşa xarici investisiyaların strukturundan göründüyü kimi, strateji məqsədlər və gələcəkdə yeni prioritet sahələrin yaradılması üçün hazırda xarici kapitalın imkanlarından lazımınca istifadə olunmur. Mütləq deyil ki, müxtəlif sahələrin investisiyaya olan tələbatı birbaşa investisiyalar hesabına ödənilsin. Bunun üçün digər mən-

bələrdən də səmərəli istifadə olunmalıdır. Respublikamızda qeyri-kredit investisiyaların əksər hissəsi neft sektoruna yönəlirsə, digər sahələrdən olan tikintiyə 5,2%, nəqliyyat və rabitəyə 2,0%, ticarət və xidmət sahələrinə isə 1,2% vəsait qoyulmuşdur.

2012-ci ilin daxili investisiyaların sahələr üzrə strukturunda kənd təsərrüfatı - 5,3%, sənayenin xüsusi çəkisi 27,8%, tikintinin 3,2%, nəqliyyatın 18,6%, rabitənin 2,3%, səhiyyənin 2,1% təşkil edir. Digər sahələrə qoyulmuş daxili investisiyaların ümumi daxili investisiyalarda payı isə 0,2%-ə bərabərdir [4].

Təhlildən göründüyü kimi, qeyri-kredit mənbələrindən Azərbaycan iqtisadiyyatının sahələrinə, xüsusilə səhiyyə, aqrar iqtisadiyyata, xidmət sahələrinə lazım olan sərmayələrin cuzi hissəsi qoyulur ki, bunun da hesabına istənilən nəticəni əldə etmək mümkün olmur.

Son beş il ərzində ölkə iqtisadiyyatına yönəlmiş xarici investisiyaların məbləği 20 mlrd. manat təşkil etmiş, onların 75%-i bilavasitə iqtisadiyyata yönəlmiş, eyni zamanda, həmin sərmayənin 19 mlrd. dolları və 95%-i neft sənayesinin inkişafına sərf edilmişdir. Ölkəmizdə son beş ildə istehsal edilmiş sənaye məhsullarının 61,3%-i mədənçıxarma, 33%-i emal sənayesi, qalan hissəsi isə elektroenergetika, qazın, suyun istehsalı və bölüşdürülməsi müəssisələrinin payına düşmüşdür. Təkcə 2012-ci ildə ÜDM-in həcmi 3,4%, sənaye məhsulunun artımı isə 5,1% çoxalmışdır.

Bütan bunlar ÜDM-in həcminin artırılmasında investisiyaların rolu böyük olmasını göstərir və bu istiqamətdə daha çox kapital axınının stimullaşdırılmasını şərtləndirir.

### 3. Xarici investisiyaların təhlili

Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatında baş verən bu müsbət dəyişikliklər xarici investisiya qoyuluşu birbaşa əlaqəli olmasa da, dolayı yolla xarici investisiyalar bütün makroiqtisadi göstəricilərlə sıx bağlıdır.

Belə ki, investisiyaların xüsusi çəkisi ÜDM-da nə qədər çox olarsa, bu ölkə iqtisadiyyatında müsbət nəticə kimi qiymətləndirilə bilər (*Cədvəl 1*).

Cədvəldən göründüyü kimi, ölkə iqtisadiyyatına xarici kapital idxalının xüsusi çəkisi nəzərə çarpacaq dərəcədə artmışdır,bunu iqtisadiyyatın dinamik inkişafının üstünlüyü kimi qəbul etmək olar.

Beləliklə, ölkə üzrə bir neçə makroiqtisadi göstəricilərin dinamikasını əks etdirən birinci cədvəldən göründüyü kimi, bu göstəricilər ilə xarici investisiya qoyuluşu arasında müəyyən bir qanunauyğunluq vardır.

Aparılan təhlil onu göstərir ki, ölkə iqtisadiyyatına qoyulan investisiyaların 39,0%-dən çoxu prioritet sahə kimi sənaye sektoruna yönəldilmişdir. Ona görə də xidmət sahələrindən fərqli olaraq sənayeyə qoyulan investisiyalardan səmərəli istifadə edilməsi vacib məsələlərdən biridir.

## Cədvəl 1. Azərbaycan iqtisadiyyatında investisiyaların ÜDM-da xüsusi çəkisi (*mln. man*)

| № | Göstəricilər | 2000 | 2003 | 2005 | 2008 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|
| | *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* | *8* |
| 1 | ÜDM min manat | 4718 | 7147 | 12523 | 40137 | 42465 | 52082 | 53995 |
| 2 | Xarici investisiyalar | 508 | 2848 | 3668 | 2242 | 2406 | 2600 | 3259 |
| 3 | Daxili investisiyalar | 460 | 938 | 2105 | 7702 | 7499 | 10199 | 12148 |
| 4 | Xarici investisiyaların ÜDM-da xüsusi çəkisi, % | 10,8 | 39,8 | 29,3 | 5,6 | 5,7 | 5,0 | 6,0 |
| 5 | Daxili investisiyaların ÜDM-da xüsusi çəkisi, % | 9,7 | 13,1 | 16,8 | 19,2 | 17,7 | 19,6 | 22,5 |

Mənbə: Azərbaycan sənayesi. Statistik məcmuə. (2013).

2003-2012-ci illərdə sənaye sektoruna yönəldilən investisiyalar və onlardan istifadə dərəcələrinə aşağıdakı cədvəl vasitəsi ilə diqqət yetirək:

Cədvəl-2-dən göründüyü kimi, 2003-2012-ci illərdə bütün sənayeyə 3033 mln. manat investisiyaya yönəldilmişdir ki, onun da 1341 mln. manatı və ya 44,2%-i xarici, qalan 55,8%-i isə daxili investisiyalardır. Bu investisiyaların yalnız 861,2 mln. manatı və yaxud 28,4%-i emal sənayesinə sərf edilmişdir ki, onların da 316,5

## Cədvəl 2. Azərbaycanda sənaye sektoruna yönəldilən investisiyalar və onlardan istifadə (*mln. man*)

| № | Göstəricilər | 2003 | 2005 | 2008 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|
| | *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* |
| 1 | Bütün sənaye üzrə cəmi | 3002 | 4176 | 4249 | 4276 | 5370 | 6040 |
| 1.1 | Xarici investisiyalar | 2648 | 3350 | 2011 | 1917 | 2125 | 2661 |
| 1.2 | Daxili investisiyalar | 354 | 826 | 2238 | 2359 | 3245 | 3372 |
| 2 | Emal sənayesi üzrə cəmi | 77 | 116 | 395 | 510 | 848 | 861 |
| 2.1 | Xarici investisiyalar | 15 | 36 | 43 | 1 | 1 | 1 |
| 2.2 | Daxili investisiyalar | 62 | 80 | 352 | 509 | 847 | 860 |
| 3 | Maşın və avadanlıqlar istehsalı üzrə cəmi | 0.8 | 3.1 | 9.4 | 0.2 | 0.1 | - |
| 3.1 | Xarici investisiyalar | - | 2.8 | - | - | - | - |
| 3.2 | Daxili investisiyalar | 0.8 | 0.3 | 9.4 | 0.2 | 0.1 | - |
| 4 | Maşın və avadanlıqlar istehsalına yönəldilən investisiyaların emal sənayesindəki xüsusi çəkisi (*faizlə*) | 1.0 | 2.7 | 2.4 | 0.04 | 0.01 | - |

Mənbə: Azərbaycan sənayesi. Statistik məcmuə. (2013).

mln. manatı və ya 36,7%-ni xarici, 63,3%-ni isə daxili investisiyalar təşkil etmişdir. Həmin illərdə maşın və avadanlıqlar istehsalına cəmi 258 mln. manat daxili investisiyaya yönəlmişdir ki, bu da emal sənayesinə qoyulmuş sərmayənin təxminən 4%-ni təşkil edir. Bütün bunlar, şübhəsiz,respublikamızın sənaye sektorunda innovasiya prosesinin səmərəli təşkilinə öz mənfi təsirini göstərmişdir.

Aparılan təhlil göstərmişdir ki, 2003-2012-ci illərdə sənaye üzrə texnoloji innovasiyalara cəmi 3032 mln. manat xərclənmişdir ki, onun da cəmi 787 mln. manatı və ya 2,8%-i emal sənayesinə yönəldilmişdir. Həmin xərclərin sənayedə 173,8 mln. manatı, emal sənayesində isə 48 mln. manatı məhsul innovasiyasına, qalan məbləği isə (uyğun olaraq, 8,8 mln. manat və 8,5 mln. manat) proses innovasiyasına sərf edilmişdir. Maşın və avadanlıqlar istehsalı üzrə texnoloji avadanlıqlara qeyd edilən illər ərzində cəmi 13,6 mln. manat vəsait xərclənmişdir ki, onun da 12,2 mln. manatı və ya 90%-i məhsul innovasiyaları üçün xarakterik olmuşdur. Təhlil göstərir ki, texnoloji innovasiyaya ən çox 2005-ci və 2008-ci illərdə vəsait xərclənmişdir. Nəticədə 2003-cü ildə hər manat texnoloji innovasiya xərcinə 7,4 min manat həcminə məhsul düşmüşdürsə, 2008-ci ildə 53,3 mln. manat xərcə qarşı cəmi 8,5 mln. manat innovasiya məhsulu istehsal edilmiş və ya hər manat innovasiyası üçün xarakterik olmuşdur. Təhlil dövründə innovasiya məhsulları emal sənayesində də mövcut olmuşdur: orada maşın və avadanlıqlar istehsalı üzrə innovasiya məhsullarının həcmi 2003-cü ildə emal sənayesinin eyniadlı göstəricisinin 85%-ni, 2005-ci ildə 42,7%-ni, 2008-ci ildə 22,1%-ni, 2010-cu ildə isə 11,3%-ni, 2011-ci ildə 10,8%-ni, 2012-ci ildə 11,9%-ni təşkil etmişdir. [3, 4]

Göründüyü kimi, ölkə iqtisadiyyatının inkişaf dövrlərində - 2003-2012-ci illərdə başlanan məqsədli və sürətli investisiya siyasəti hazırda da davam edir. Bütün mənbələr üzrə ölkə iqtisadiyyatına yönəldilən investisiyanın həcmi qənaətbəxş sayılsa da, onun struktur təhlili müəyyən səviyyələrdə kövrək tərəflərin mövcudluğunu göstərir. Belə ki, ümumi investisiyaların əksər hissəsinin bilavasitə neft sektoruna yönəldilməsi, həmçinin xarici investisiyaların ciddi üstünlük təşkil etməsi kimi göstəricilər dövlətin həyata keçirdiyi investisiya siyasətinin kəmiyyətlə yanaşı, keyfiyyət tərəfinin daha çox diqqətə alınmasını zəruri edir.[5, s. 120]

Ümumiyyətlə, bütün mənbələr üzrə ölkə iqtisadiyyatına yönəldilən investisiyanın həcminin davamlı artırılmasına xarici investisiyaların rolu inkar olunmazdır. Hazırda reallaşdırılan, həmçinin növbəti dövrlər üçün qəbul olunması nəzərdə tutulan müxtəlif sosial-iqtisadi inkişaf proqramının və digər iqtisadi siyasət sənədlərinin icrası hər şeydən öncə böyük həcmdə xarici investisiyanın aktiv cəlb edilməsi siyasəti hazırda dövlətin ümumi iqtisadi siyasətin tərkibində aparıcı yer tutur.

Azərbaycan Respublikası iqtisadi müstəqillik əldə etdikdən sonra respublika iqtisadiyyatına xarici investisiyaların cəlb olunması, radikal iqtisadi islahatların aparılmasında əsas yerlərdən birini tutmuşdur. İndi respublikada siyasi və iqtisadi stabillik əldə olunduğundan və Azərbaycan öz qapılarını bütün dünyaya açdığından xarici

investorlar, iş adamları, sahibkarlar öz kapitallarını respublikada iqtisadiyyatının bütün sahələrinə yönəltməyə maraqlıdırlar. Öz növbəsində Azərbaycan Respublikasında xarici investorların investisiyalarının ölkəmizə cəlb olunmasını, bu əsasda iqtisadiyyatı qaldırmaq, iqtisadiyyatın bütün sahələrində müstəqil respublikanın öz daxili tələbatına uyğun və həm də bazar münasibətlərinə keçid mexanizminə müvafiq struktur dəyişiklikləri aparmaq üçün xarici kapitalın cəlb olunmasına böyük ehtiyac duyur.

Hazırda Azərbaycan Respublikasında xarici kapitalın cəlb olunması və onun fəaliyyətinin təmzinlənməsi üçün zəruri hüquqi, iqtisadi və təşkilati baza yaradılmışdır. Təsadüf deyil ki, XXI əsrin "Şahdəniz" müqaviləsi imzalandıqdan sonra Azərbaycan dünyanın bir çox dövlətləri ilə müqavilə bağlanmışdır. Bu ölkələrin 14 böyük şirkəti, habelə 200-ə qədər servis xidməti göstərən müxtəlif xarici ölkələrin şirkətləri burada fəaliyyət göstərəcək və həmin şirkətlərdə 10 min nəfərdən artıq Azərbaycan mütəxəssisi işləyəcəkdir.

2000-2012-ci illərdə respublika iqtisadiyyatına qoyulan xarici investisiyaların məbləği 15,5 dəfə artaraq 508 milyon manatdan 3259 milyon manata gəlib çatmışdır. Ümumiyyətlə, 2000-2012-ci illərdə ölkə iqtisadiyyatına qoyulan investisiyaların məbləği 4718 mln. manatdan 53995 mln. manat olmuşdur. Nəzərə almaq lazımdır ki, 2012-ci ildə ölkə iqtisadiyyatına cəmi 15407 milyon manat məbləğində investisiya qoyulmuşdur ki, onun da 12148 milyon manat (*22,5%-i*) daxili investisiyalar, 3259 milyon manat isə (*6%-i*) xarici investisiyalar təşkil etmişdir [4].

Hazırda Azərbaycana xarici investisiya 33,3%-i Fransanın, 26,8%-i Türkiyənin, 13,9%-i Yaponiyanın, 9,5%-i ABŞ-ın, 5,8%-i Böyük Britaniyanın, 2,4%-i BƏƏ-nin, 2,4%-i İranın, 1,4%-i Almaniyanın, 4,5%-i isə başqa ölkələrin payına düşür. Aparılan tədqiqatların nəticələrindən aydın olur ki, bir çox obyektiv və subyektiv amillər nəticəsində Azərbaycanda xarici kapitalın yaratdığı potensial imkanlarından hələlik kifayət qədər tam və səmərəli istifadə olunmur və ölkədə aparılan xarici investisiya siyasətinin təkmilləşdirilməsini tələb etdiyi bir halda iqtisadiyyatın əsas sahələri üzrə bu investisiyalardan səmərəli istifadə etmək tələblərin səviyyəsindən irəli gəlir [3].

Göründüyü kimi, ölkə iqtisadiyyatına qoyulan investisiyalar 2003-cü ildən başlayaraq az da olsa başqa sahələrə yönəldilmişdir.

## 4. İqtisadiyyatın əsas sahələri üzrə əsas kapitala yönəlmiş xarici investisiyaların təhlili

İqtisadiyyatın əsas sahələri üzrə əsas kapitala yönəldilmiş xarici investisiyaların sənayeyə yönəldilən xarici investisiyalar 2003-cü ildə 93,0% təşkil etmiş, 2003-2012-ci illərdə isə əvvəlcə artmış, sonra isə azalmağa doğru meyil edərək, 93,0-89,7% intervalında dəyişmişdir. Bu investisiyaların təşkilində neft-qaz sənayesinə

yönəldilən vəsaitlərin məbləği ilbəil artmış və 2003-cü ildə 191,3%, 2008-ci ildə 82,0%, 2012-ci ildə isə 123,6% olmuşdur. Digər sənaye sahələrinə, xüsusən də emal, metallurgiya və elektrik enerjisi, qaz və su təchizatı sahələrinə yönəldilən xarici investisiyaların payı kəskin şəkildə azalmışdır.

**Cədvəl 3. 2003-2013-cü illərdə Azərbaycan iqtisadiyyatının mühüm sahələri üzrə əsas kapitala yönəlmiş xarici investisiyaların xüsusi çəkisinin dinamikası** *(min man)*

| S/№ | Milli iqtisadiyyatın sahələri | 2003 | 2005 | 2008 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|
| *A* | *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* |
| 1 | Kənd təsərrüfatı | 8705 | 16173 | 13673 | 981,9 | 464 | 5696 |
| 2 | Sənaye | 2648110 | 3349909 | 2011024 | 1917294 | 2124722 | 2663144 |
| 3 | Tikinti | 1322 | 43499 | 10217 | 60886 | 74263 | 109826 |
| 4 | Ticarət: nəqliyyat vasitələri | 2410 | 1263 | 167 | 16946 | 9470 | 7627 |
| 5 | İnformasiya və rabitə | 9346 | 17838 | 31708 | - | 41983 | 49392 |
| 6 | Daşınmaz əmlakla əlaqədar əməliyyat | 16101 | 426 | 3 | - | 2189 | 2210 |
| 7 | Digər sahələr | 164 | 235 | 175 | 412 | 357 | 518 |

Mənbə: Azərbaycan sənayesi. Statistik məcmuə (2013).

İqtisadiyyatın nəzərdən keçirilən sahələrdən yalnız tikintiyə yönəldilən xarici sərmayələrin xüsusi çəkisi artmış, 2010-cu, 2011-ci və 2012-ci illərdə, müvafiq olaraq 0,3%, 0,4% və 0,6% təşkil etmişdir. Digər sahələrdə isə kəskin şəkildə azalma müşahidə olunur. Göründüyü kimi, xarici investisiyalar əsasən neft-qaz sənayesinə, tikintiyə və elektrik enerjisi istehsalı sahələrinə yönəldilmişdir.

Tədqiqatın nəticəsi göstərir ki, xarici kapital daha çox gərginliyi yüksək və xərclərin ödəmə müddəti daha az olan sahələrə yönəldilir.

Xarici investisiyaların tənzimlənməsi və onların milli maraqlar nöqteyi-nəzərdən iqtisadiyyatın digər sahələrinə, xüsusilə, xammala və yeni texnologiyalara verilməsi vacib amillərdən biridir. Bu baxımdan xarici investorların diqqətini digər sahələrə cəlb etmək lazımdır.

Ümumiyyətlə xarici investorların respublikaya cəlb edilməsinə müsbət təsir edən amillər aşağıdakılardır:

- təbii və xammal vəsaitlərinin olması;
- yeni texnika və texnologiyanın cəlb edilməsi üçün ixtisaslı kadrların elmi-texniki kadrların olması;

- ucuz işçi qüvvəsinin olması;
- daxili bazarın olması;
- özəlləşmə prosesinin aparılması və xarici investorların iştirakı.

Milli iqtisadiyyatın formalaşması və inkişafı üçün beynəlxalq əməkdaşlığın və onun mühüm forması olan müştərək sahibkarlığı genişləndirmək lazımdır.

Hazırkı dövrə qədər, o cümlədən 2013-cü ilin birinci rübündə olduğu kimi birinci yarısının yekunlarına görə də ölkə iqtisadiyyatına investisiya qoyuluşunda davamlı artım müşahidə olunmuşdur. 2013-cü ilin birinci yarısında ölkə iqtisadiyyatının inkişafına bütün maliyyə mənbələri hesabına əsas kapitala 16506 mlrd. manat investisiya yönəldilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü səviyyəsinin 105,3%-ni təşkil edir. Həyata keçirilməkdə olan davamlı və kompleks iqtisadi islahatların nəticəsi kimi iqtisadiyyatda qeyri-dövlət sektorunun payı artır. Bu prosesin məntiqi nəticəsi kimi əsas kapitala investisiya sahəsində də qeyri-dövlət mülkiyyətinə məxsus müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 14850 mlrd. manat investisiya yönəldilmişdir ki, bu da ümumi məbləğin 90,0%-ni təşkil edir.

Dövlət tərəfindən müxtəlif sosial-iqtisadi inkişaf proqramları çərçivəsində böyük həcmdə xarici investisiyanın cəlb edilməsi tələb olunur. Bu baxımdan ölkədə müasir iqtisadi siyasət kursunun başlıca istiqamətlərindən birini təşkil edən xarici investisiyanın aktiv cəlb edilməsi siyasəti öz bəhrəsini verməkdədir. 2013-cü ilin birinci yarısında əsas kapitala yönəldilən investisiyanın 62%-i xarici mənbələrin hesabınadır. Eyni zamanda, əsas kapitala yönəldilmiş daxili investisiya əvvəlki ilin müvafiq dövrünün səviyyəsindən 45,4% -dən çox olmuşdur.

## 5. İnvestisiyanın səmərəliliyinin qiymətləndirilməsi

Bütün bunlar imkan verir ki, gündən-günə iqtisadi cəhətdən inkişaf edən və güclənən respublikamıza yönələn daxili və xarici investisiyalardan səmərəli istifadəni müəyyən etmək üçün onların makrosəviyyədə qiymətləndirilməsi çox vacib məsələlərdən biridir.

Hazırda investisiya axınının səmərəliliyinin qiymətləndirilməsində müəyyən sxemlərdən istifadə olunur. Aşağıda göstərilən sxemdə mikroiqtisadi göstəricilərin qarşılıqlı əlaqələri **A** və **B** əsas blokunu əhatə edir. **A** bloku son tələbi xarakterizə edən göstəricilər sistemini formalaşdırır. **B** bloku isə qiymətləri, əməkhaqqını və məşğulluğu formalaşdıran göstəriciləri xarakterizə edir.

**B** blokunda 4 konturu əhatə edən əks əlaqələr mövcuddur.

1. ÜDM ilə istehlak göstəricisi arasındakı əlaqə **K** multiplikatoru vasitəsilə əks olunmuşdur. Multiplikator investisiyaların verilmiş artımında gəlirlərin nə qədər artdığını göstərən əmsaldır.

$$\Delta \ddot{U} = K \cdot \Delta \dot{I} \qquad (1)$$

Burada, **ΔÜ** – ÜDM-in artımı, **Δİ** – investisiyaların artımıdır.

Belə ki,

$$\mathbf{\Delta \ddot{U}=\Delta S+\dot{I}.} \qquad (2)$$

Burada, **ΔS** – istehlak xərclərinin ümumi həcminin (qeyri-istehsal istehlakının) artımıdır.

Onda,

$$\mathbf{K=\Delta \ddot{U}/(\Delta \ddot{U}-\Delta S).} \qquad (3)$$

Və ya

$$\mathbf{K=I/(I-\Delta S/\Delta \ddot{U})} \qquad (3)$$

Burada, **ΔS/ΔÜ** – istehlaka meyilliyin son həddidir.

2.ÜDM ilə dövlət xərcləri arasında əlaqə avtomatik tənzimləyicilərin təsirinə əsaslanır. Bu tənzimləyicilər isə vergi sisteminə qoyulmuşlar, yəni gəlirlərin artımı vergilərin proqressiv artımına gətirir; bu isə, öz növbəsində, kapital qoyuluşlarının potensial imkanlarını azaldaraq, ÜDM-in artımını stimullaşdıran dövlət xərclərini artır.

3.Akseleratorun təsiri ilə ÜDM ilə istehsal təyinatlı investisiyalar və ehtiyatlar arasındakı əks əlaqə qapanır. Akselerator (*R*), kapital qoyuluşları (*İ*) və son məhsula tələbatın dəyişməsi (*kapital qoyuluşunun dəyişməsi nəticəsində*) göstəriciləri arasındakı nisbəti əks etdirir:

$$\mathbf{R=\dot{I}/\Delta S.}$$

Burada, **İ** – kapital qoyuluşlarıdır (*və ya əsas kapitalın dəyərinin dəyişməsidir*).

Qeyd edək ki, əgər vahid məhsulun istehsalı üçün kapital qoyuluşlarına tələbat müəyyəndirsə, onda akselerator aşağıdakı kimi müəyyən edilə bilər:

$$\mathbf{R=\dot{I}\cdot K.} \qquad (5)$$

Burada, **Ü** – məhsulun kapital tutumunun xüsusi çəkisi;

**K** – multiplikasiya əmsalıdır.

4. ÜDM-in artımı xaricdən idxal olunan xammal, material və avadanlığa tələbi artır. Bu isə ölkə daxilində uyğun məhsulların istehsalını ixtisara salaraq, köməkçi məhsulların istehsalını artır [7, s. 160].

**B** blokunda əks əlaqələrin bir zənciri-pərakəndə qiymət indeksi ilə əməkhaqqı arasında əks əlaqə mövcuddur. Digər tərəfdən iki bloka daxil olan göstəricilərin əks əlaqələrini əks etdirən iki kontur da mövcuddur. Birinci konturun əlaqələri – ölkə daxilində istehsal olunmuş məhsulun qiyməti ilə xarici ticarətin həcm göstəriciləri arasında əlaqələri; ikinci kontur isə investisiya və ehtiyatların artım göstəriciləri ilə əks olunaraq, məhsula olan tələblə təklifin nisbətindən ehtiyatların kəmiyyəti ilə ifadə olunan asılı olaraq, kapitalın təklifinin, ÜDM-in, məşğulluğun, əməkhaqqının və mənfəətin dəyişməsini xarakterizə edir.

Bunlar, eyni zamanda, əlverişli investisiya mühiti yaratmaqla, mövcud imkanlardan daha səmərəli istifadə etməyə şərait yaradır.

Azərbaycan iqtisadiyyatına xarici kapitalın cəlb olunması prosesinin təkmil-

ləşdirilməsi, nəinki xarici-iqtisadi siyasətinin yenidən qurulmasını, həm də ölkədə gedən bütöv bir iqtisadi sistemin radikal iqtisadi islahatlarının struktur dəyişikliklərinin əsas xəttini təşkil etməlidir.

## 6. Nəticə

Xarici kapital qoyuluşlarının respublikaya əhəmiyyətli miqdarda axını və inkişafı, ilk növbədə, əlverişli investisiya mühitinin formalaşdırılması istiqamətində həyata keçirilən dövlət səviyyəli tədbirlə sıx bağlıdır. Xarici investisiyaların həyata keçirilməsi və belə imkanların daha da təkmilləşdirilməsi üçün aşağıdakılar vacib şərtlər hesab edilməlidir, daha doğrusu, qloballaşma proseslərinə uyğun Azərbaycanda beynəlxalq sərmayə hərəkətlərinin istiqamətləri ilə bağlı olan bu problemlərin həll edilməsi məqsədəuyğun olardı:

1. Əlverişli investisiya mühiti yaratmaqla, ölkəyə xarici investisiyaların axının sürətlənməsinə şərait yaratmaq .
2. Sərmayələrin hərəkətinin beynəlxalq təcrübəsində tətbiq edilən səmərəli formalardan geniş istifadə etməklə, ölkədə sənayeləşmə potensialı yaratmaq .
3. İnkişafı tələb edilən sənaye sahələri üçün potensial xarici investorların axtarılması və cəlb olunması üzrə mövcud təşkilatların funksiyalarının vahid dövlət strukturunda cəmlənməsi və ya əlaqələndirilməsi.
4. Ölkənin beynəlxalq konvensiyalara, müqavilələrə qoşulması və bir çox dünya dövlətləri tərəfindən qəbul olunan qaydalara əməl etmə öhdəçiliyinin götürülməsi istiqamətində, həmçinin xarici investisiya siyasətində ölkənin milli və beynəlxalq mənafelərinin, dövlət və cəmiyyətin məqsədlərinin qorunması və uzlaşdırılması.
5. Xarici investisiyaların tətbiqi və cəlb edilməsinin sənaye strukturunu səmərələşdirməklə, onların milli iqtisadiyyatın bütün sahələrinə istiqamətləndirilməsi.
6. Birbaşa investisiyalarla yanaşı, ölkəmizə zəif cəlb olunan portfel investisiyalarının tətbiqi üçün əlverişli şərait yaratmaq, bunun üçün qiymətli kağızlar bazarını dünya standartlarına uyğun formalaşdırmaq, investisiyaların qorunması haqqında ikitərəfli sazişləri nəzərdən keçirmək.
7. Xarici investisiya əməliyyatlarında gələcəkdə alınan gəlirlərin ilk kapital qoyuluşlarından fərqli olma ehtimalı mövcud olduğuna görə kapitalın bir valyutadan digərinə keçirilməsi, onun real səviyyəsinin qiymətləndirilməsi və investisiyaların xüsusiyyətlərinin nəzərə alınması təmin olunmalıdır. Çünki, beynəlxalq (*birbaşa və portfel*) investisiya əməliyyatlarında valyuta risklərinin idarə olunması məsələləri vacib amillərdən hesab olunmalıdır.
8. Azərbaycanın bank sisteminin investisiya fəallığının dəstəklənməsindəki zəif

iştirakı aradan götürülməlidir. Xarici kapitalın iştirak etdiyi investisiya layihələrinə xidmətdən yerli bankların payı qənaətbəxş səviyyəsinə çatdırılmalıdır.

9. Xarici investorların cəlb edilməsində mühüm və milli mənafe baxımından faydalı olan bir istiqaməti – idxalı əvəz edən məhsullar istehsalının təşkilinə xüsusi fikir verilməlidir.
10. Xarici investisiyaların təkcə mərkəzdə deyil, regionlarda yayılmasına iqtisadiyyatın digər sənaye axınına dövlət səviyyəsində kəsərli tədbirlərin görülməsi ön plana çəkilməlidir.
11. Müasir şəraitdə xarici investisiyaların cəlb olunması sahəsində konkret vəziyyəti öyrənmək, ölkədə investisiya mühitini təmin edən iqtisadi və qanunvericilik bazasını xarici investisiyaların cəlb olunması və birgə müəssisələrin yaradılması mexanizmini müasir tələblərə uyğun təkmilləşdirilməsini təmin etmək.

Milli iqtisadiyyatın əsas seqmentlərindən biri olan sənaye sahələrinə yönəldilən xarici sərmayələrin səmərəli və məqsədli istifadəsi, onların cəlb edilməsinin stimullaşdırılması, ölkənin gələcək sabit inkişafının, dünya iqtisadiyyatında və inteqrasiyasında əsaslı mövqe tutmasında tam təminatçısı olacaqdır.

Beləliklə, yuxarıda qeyd edilənləri nəzərə almaqla, xarici investisiyaların zəruri hüquqi mühitinin daha da zənginləşdirilməsi, təkmilləşdirilməsi, onun mütərəqqi dünya səviyyəsinə uyğunlaşdırılması Azərbaycanda xarici investisiya qoyuluşları imkanını daha da inkişaf etdirə bilər və ölkəmizin qloballaşdırma proseslərində fəal iştirakına kömək ola bilər.

**Ədəbiyyat siyahısı:**

1. “Sənaye ili” Respublika Prezidentinin Sərəncamı. (2014).
2.“İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu.(1999). Bakı: s.37.
3.www.azstat.org - Azərbaycan Respublikası Statistika Komitəsinin veb saytı.
4.Azərbaycan sənayesi. Statistik məcmuə. (2013). Bakı: “Səda”. s. 332.
5.Əliyev R., Məmmədov M,. Novruzov N. (2005). İnvestisiyanın maliyyələşdirilməsi və kreditləşdirilməsi. Bakı: s. 355.
6.Hacızadə E.M. (2002). Nefqazçıxarma kompleksinin iqtisadi inkişaf modeli. Bakı: “Elm”. s. 472.
7.Hacıyev F.Ş. (2003). “Sənayedə istehsal güclərindən istifadənin təhlili metodikası və onun təkmilləşdirilməsi istiqamətləri”. Bakı: s. 250.
8. Лихачева О.Н., Щуров С.А. (2009). Краткосрочная финансовая политика предприятий. М.: с. 560. (Lixaçeva O.N.,Şurov S.A. (2009). Müəssisənin maliyyə siyasəti. M.: s 560.)
9. Комплексный экономический анализ хозяйственной деятельности. (2011). под.ред. А.И. Алексеева М.: с. 672.(Alekseva A.İ. (2013). Təsərrüfat fəaliyyətinin kompleks iqtisadi təhlili M.: s.672)

**Гаджиев Фазил Шохлат оглы**
д.э.н., доц., Азербайджанский Государственный Экономический Университет

## Анализ и оценка эффективности инвестиционных потоков в промышленные отрасли в современных условиях

## Аннотация

*Цель исследования* – в условиях вложения инвестиций определение развития направления промышленности, являющейся приоритетной областью национальной экономики

*Методология исследования* – системный подход, финансовый анализ

*Результаты исследования* – анализ эффективности иностранных инвестиций в промышленность в условиях экономических реформ.

*Ограниченность исследования* – анализ и оценка эффективности вложения инвестиций в промышленную сферу в современных условиях требует широких информативных расчетов

*Практическая значимость исследования* – использование в качестве научного источника при расширении промышленного потенциала регионов Азербайджана

*Оригинальность и научная новизна исследования* – усовершенствование методологии оценки эффективности инвестиций в промышленность из различных источников.

**Ключевые слова:** *экономика Азербайджана, экономические реформы, инвестиции, инвестиции и методы оценки эффективности.*

**Hajiyev Fazil Shohlat oglu**
ass.prof., Azerbaijan State Economic University

## Analysis and evaluation of investment flow in industries in modern conditions

## Abstract

*Purpose* – determining the direction of development of the industry as a priority area of the national economy in terms of investment.

*Design/methodology* – a systematic approach, financial analysis

*Findings* – analysis of the effectiveness of foreign investment in the face of economic reforms.

*Research limitations* – analysis and evaluation of the flow of investment in industrial sectors in modern conditions requires advanced information calculation.

*Practical implications* – using as scientific sources for expansion of industrial capacities in the regions of Azerbaijan

*Originality/value* – the improvement of the methodological evaluation of the effectiveness of investments from various sources in the industry.

**Keywords:** *economy Azerbaijan, economic reforms, investment, evaluation of investment in the industry.*

**JEL Classification Codes:** E22, L5, L6, R53

Məqalə redaksiyaya daxil olmuşdur: 29.01.14.
Təkrar işlənməyə göndərilmişdir: 10.02.14.
Çapa qəbul olunmuşdur: 28.03.14.